**Cədvəl 1. Sənayenin əsas göstəriciləri**

| Göstəricilər | Əvvəlki illə müqayisə (%-lə) | Məbləğ, milyon manat |
|---|---|---|
| **Ümumi daxili məhsul** | **1,1** | **123 005,5** |
| Neft-qaz sektoru | - 1,7 | 45 343,7 |
| Qeyri-neft sektoru | 3,7 | 77 661,8 |
| **Sənaye üzrə ÜDM** | **- 1,3** | **49 759,2** |
| Sənayenin neft-qaz sektoru | - 2,2 | 43 472,5 |
| Sənayenin qeyri-neft sektoru | 7,9 | 6 286,7 |
| **Sənaye məhsulu (ümumi buraxılış)** | **- 1,1** | **66 619,0** |
| Sənayenin neft-qaz sektoru | - 2,0 | 48 877,3 |
| Sənayenin qeyri-neft sektoru | 8,0 | 17 741,7 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər** | **9,8** | **20 296,6** |
| Sənaye sahələrinə yönəldilmiş  əsas kapital | 9,7 | 8 132,3 |
| Sənayenin neft sektoruna yönəldilmiş əsas kapital | 10,9 | 6 265,5 |
| Sənayenin qeyri-neft sektoruna yönəldilmiş əsas kapital | 5,8 | 1 866,9 |
| **Sənaye sahələrində çalışan işçilərin orta siyahı sayı (2023-cü il, yanvar-noyabr ayları)** | **221,6 min nəfər** | |
| Sənaye sahələrində çalışan işçilərin orta əmək haqqı (2023-cü il, yanvar-noyabr) | 6,1 | 1 207,6 manat |

## *Ümumi daxili məhsul*

2023-cü ildə ölkədə istehsal edilmiş **ÜDM-nin həcmi** əvvəlki ilə nisbətən 1,1% artaraq 123 005,5 milyon manat olmuşdur.

- ***Neft sektoru –*** istehsalın həcmi ötən illə müqayisədə 1,7% azalaraq 45 343,7 milyon manat olmuşdur.
- ***Qeyri-neft sektoru –*** istehsalın həcmi ötən illə müqayisədə 3,7% artaraq 77 661,8 milyon manat olmuşdur. Müqayisə üçün ötən ildə qeyri-neft sektorunda yaradılmış ÜDM-in artım tempi 9,1% olmuşdur.




2023-cü ildə sənaye sektoru üzrə 49 759,2 milyon manatlıq ÜDM istehsal edilmiş, bu da cəmi ÜDM-in 40,5 %-ni təşkil etmişdir. Sənaye üzrə ÜDM-in 87,4%-i neft sektorunun, 12,6%-i qeyri-neft sektorunun payına düşür.



## ***Sənayedə ümumi buraxılış***

2023-cü ildə sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 66619,0 milyon manat təşkil etmişdir ki, bu da öz növbəsində ötən ilə nisbətən 1,1% azalmışdır.

Sənaye istehsalında qeyri-dövlət sektorunun payı 84,5% olmuşdur. Ümumi istehsalın 90,9%-i sənaye məhsullarının istehsalı, 9,1%-i isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 yanvar 2024-cü il vəziyyətinə 868,0 milyon manatlıq hazır məhsul olmuşdur.

**Ümumi buraxılışın bölgüsü**




- **Neft-qaz sənayesi –** 2022-ci illə müqayisədə 2,0% azalaraq 48 877,3 milyon manat təşkil etmişdir.
- **Qeyri-neft sənayesi –** 2023-cü ildə istehsalın həcmi 17 741,7 milyon manat təşkil etmiş və 2022-ci ilə nisbətən 8,0% artmışdır. Qeyri-neft emal sənayesi isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,2% artmışdır.

**Qeyri-neft sənayesinin artım tempi**



## ***Sənayenin struktur bölgüsü***

**Mədənçıxarma sənayesi –** 2023-cü ildə istehsalın ümumi dəyəri 44 919,8 milyon manat olmaqla, əvvəlki ilə nisbətən 2,5% azalmışdır. Sahənin əsas məhsulu olan əmtəəlik xam neft hasilatı 30,1 milyon ton, əmtəəlik təbii qaz hasilatı isə 36,4 milyard kub metr təşkil etmişdir. Əmtəəlik neft hasilatı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 7,6 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 4,2 faiz artmışdır.

**Emal sənayesi –** 2023-cü ildə 18 048,6 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. İstehsalın həcmi əvvəlki illə müqayisədə 9,8% artmışdır.

**Elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı –** 2023-cü ildə 3 065,0 milyon manat dəyərində məhsul istehsal olunmuş və xidmətlər göstərilmiş, əvvəlki illə müqayisədə 0,6% artım müşahidə olunmuşdur.

**Su təchizatı, tullantıların təmizlənməsi və emalı –** 2023-cü ildə sektorda istehsal edilmiş məhsulların həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,5% artaraq 585,6 milyon manat olmuşdur.



## ***Əsas kapitala yönəldilmiş vəsaitlər***

Respublikanın iqtisadi və sosial sahələrinin inkişafına 2023-cü ildə bütün maliyyə mənbələrindən əsas kapitala 20 296,6 milyon manat vəsait yönəldilmişdir ki, bu da ötən illə müqayisədə 9,8% artmışdır.

Sənayedə **neft sektoruna** yönəldilmiş əsas kapitalın həcmi 2022-ci ilin müvafiq dövrünə nisbətən 10,9% artaraq 6 265,5 milyon manat təşkil etmişdir.

Sənayedə **qeyri-neft sektoruna** yönəldilmiş əsas kapitalın həcmi ötən ilə nisbətən 5,8% artaraq 1 866,9 milyon manat təşkil etmişdir.

Ümumi vəsaitin 40,1% (8 132,3 milyon manat) sənaye sahələrinin inkişafına yönəldilmiş və bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,7% artmışdır.

**Sənayedə əsas kapitala yönəldilmiş vəsaitlərin bölgüsü**




2023-cü ildə sənayedə əsas kapitala yönəldilmiş vəsaitlərin 74,8% mədənçıxarma sənayesi, 10,9% emal sənayesi, 11,9% elektrik enerjisi sənayesi və 2,4% su təchizatı, tullantıların təmizlənməsi və emalı sənayesinə yönəldilmişdir.

**Sənayedə əsas kapitala yönəldilmiş vəsaitlərin sahələr üzrə həcmi, milyon manat**



## Sənaye sahələrində çalışan işçilərin sayı və orta əmək haqqı*

2023-cü ilin yanvar-noyabr aylarında ölkənin sənaye sahələrində çalışan muzdlu işçilərin orta siyahı sayı 221,6 min min nəfər təşkil etmişdir, onların orta aylıq nominal əmək haqqı isə 6,1%artaraq 1 207,6 manat olmuşdur.

İşçilərin 33,2 min nəfəri mədənçıxarma, 126,7 min nəfəri emal, 27,6 min nəfəri elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 34,1 min nəfəri isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində çalışmışdır.

### İşçilərin sayının sahə bölgüsü




### Sənayenin fəaliyyət növləri üzrə bir işçinin orta aylıq nominal əmək haqqı, manatla

